# “Divanü lüğat-it-türk” Qazaxıstanda

**Qazaxıstanda Türk Mədəniyyəti və İrsi Fondunun TİKA və Türk Dünyası Fondunun birgə əməkdaşlığı çərçivəsində “Divanü lüğat-it-türk” Beynəlxalq sərgisi açılış keçirilir. Qədim türk yazılı abidəsinin təqdimatı Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura Toplantısı çərçivəsində təşkil olunub.**

Sərgi XI əsrin görkəmli türk alimi və mütəfəkkiri Mahmud Kaşğarinin əsərinə - “Divanü lüğat-it-türk”ün 950 illiyinə həsr olunub. Bu sərgi çərçivəsində türkdilli xalqların zəngin mədəni irsini, dil və ədəbiyyatını əks etdirən nadir eksponatlar, tarixi əlyazmalar və XI əsrə aid türklərin mədəni quruculuq aspektinə diqqət çəkən əşyalar təqdim edilib.



Xatırladaq ki, “Divanü lüğat-it-türk” əsərinin yaranmasının 950 illiyi münasibətilə, eləcə də sözügedən əlamətdar hadisənin 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi ilə əlaqədar Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən 2024-cü il dekabrın 13-də Parisdə, UNESCO-nun mənzil-qərargahında “Dünyanın leksikoqrafiyada xəritələşdirməsi: Divanü lüğat-it-türk” əsərinin 950 illik yubileyi” adlı beynəlxalq konfrans və sərgi təşkil olunub.

***XQ***

Xalq qəzeti.- 2025.- 9 fevral (№ 29).- S.10.